**Bitki və bitkiçilik məhsullarının ixracına fitosanitar (təkrar ixrac fitosanitar) sertifikatının verilməsi**

Xidmətin göstərilməsinin hüquqi əsası:

1. "İnzibati İcraat haqqında"" Azərbaycan Respublikasının Qanunu;
2. “Lisenziyalar və icazələr haqqında” Azərbaycan Respublikasının Qanunu;
3. “Fitosanitar nəzarəti haqqında“ Azərbaycan Respublikasının Qanunu;
4. “Fitosanitar nəzarəti sahəsində bəzi normativ hüquqi aktların təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2006-cı il 29 dekabr tarixli 280 nömrəli qərarı".

**Həyata keçirilməsi üçün tələb olunan sənədlər və onların təqdimedilmə forması:**

1) fitosanitar sertifikatının verilməsi üçün fiziki və ya hüquqi şəxsin müraciəti:

fiziki şəxslər üçün - soyadı, adı, atasının adı, şəxsiyyəti təsdiq edən vəsiqə haqqında məlumatlar (seriya, nömrə, nə vaxt və kim tərəfindən verilmişdir, ünvanı);

hüquqi şəxslər üçün - hüquqi şəxsin adı, hüquqi ünvanı;

2) fiziki və hüquqi şəxslər barədə məlumat:

fiziki şəxslər üçün - sahibkarlıq fəaliyyəti ilə məşğul olması barədə vergi orqanları tərəfindən uçota alınması haqqında şəhadətnamənin surəti;

hüquqi şəxslər üçün - dövlət qeydiyyatı haqqında şəhadətnamənin surəti;

3) fitosanitar sertifikatının verilməsi üçün xidmət haqqının ödənilməsi barədə qəbz;

4) fitosanitar sertifikatının verilməsi nəzərdə tutulan bitki və bitkiçilik məhsullarının (yüklərin) təsviri:

ixrac olunan bitki və bitkiçilik məhsullarının adı, mənşəyi və miqdarı (hər növ üzrə);

idxalçı ölkənin adı və yükün daxilolma ünvanı;

məhsulun yüklənmə yeri və tarixi;

yük ixrac edilən sərhəd buraxılış məntəqəsinin adı.